DOI: https://doi.org/10.36719/2706-6185/51/94-98

**Gülgün Talıbzadə**
Şəki rayonu Aşağı Şabalıd kənd ümumi orta məktəb
https://orcid.org/0009-0003-3536-5026
gulgunsarxan1994@gmail.com

# Sintaqm xüsusiləşmə kontekstində

## Xülasə

Məqalədə sintaqm anlayışı xüsusiləşmə kontekstində araşdırılır və onun nitq prosesindəki semantik-sintaktik funksiyası açıqlanır. Sintaqm yalnız sintaktik vahid deyil, həm də nitqdə fasilə və intonasiya ilə müəyyənləşən semantik-sintaktik bütövdür. Araşdırmada xüsusiləşmiş və xüsusiləşməyən sintaqmlar fərqləndirilir, onların mübtəda, tamamlıq və zərfliyin xüsusiləşməsi əsasında formalaşma yolları nümunələrlə göstərilir. Xüsusiləşmə prosesində intonasiya, pauza, qoşmalar və qoşmalaşmaqda olan sözlərin mühüm rol oynadığı öz əksini tapır. Həmçinin ara sözlər, xitablar və ara cümlələrin də intonasiya vasitəsilə ayrılaraq sintaqm funksiyası daşıdığı qeyd olunur. Müasir Azərbaycan dili materialları və türk dilləri ilə müqayisələr əsasında sintaqmların sintaktik quruluşunun digər dil vahidlərindən fərqli xüsusiyyətlərə malik olduğu müəyyən edilir. Nəticə etibarilə, sintaqmın cümlə daxilində sərhədlərinin sabit olmadığı, məna və kommunikativ məqsəddən asılı olaraq dəyişdiyi vurğulanır. Məqalə sintaqmların müasir dilçilikdə ayrıca kateqoriya kimi öyrənilməsinin nəzəri və praktik əhəmiyyətini əsaslandırır.

***Açar sözlər:*** *sintaqm, xüsusiləşmə, intonasiya, fasilə, ritmik qruplar, xitab, ara sözlər*

**Gulgun Talibzadeh**
Shaki district Ashaghi Shabalid village secondary school
https://orcid.org/0009-0003-3536-5026
gulgunsarxan1994@gmail.com

# Syntagm in the Context of Specialization

## Abstract

The article examines the concept of syntax in the context of specialization and explains its semantic-syntactic function in the speech process. The syntax is not only a syntactic unit, but also a semantic-syntactic whole determined by pauses and intonation in speech. The study distinguishes specialized non-specialized syntagms and shows the ways of their formation based on the specialization of the subject, completeness and adverb with examples. It is reflected that intonation, pauses, conjuctions and words in conjuction play an important role in the specialization process. It is also noted that parenthetical expressions, addresses and parenthetical sentences also have a syntactic function, being separated by inyonation. Based on comparisons with the materials of the Azerbaijani language and Turkic languages, it is determined that the syntactic structure of syntagms has deifferent characteristics from other language units. As a result, it is emphasized that the boundaries of a sytagm with in a sentence are note fixed, but change depending on meaning and communicative purpose. The article justifies the theoretical and practical importance of studying syntagms as a separate category in modern linguistics.

***Keywords:*** *syntagm, specialization, intonation, pause, rhythmic groups, address, parenthetical expressionsd*

## Giriş

Müasir dilçiliyin aktual problemlərindən biri də sintaqm məsələsidir. Bir qrup dilçi alim sintaqmı dil vahidi kimi tədqiq edərkən, dilçiliyin digər nümayəndələri onu nitq vahidi kimi tədqiqat obyektinə

 Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

çevirmişlər. Bu istiqamətdə fərqli baxış bucağının məhsulu olan sintaqmın semantik-sintaktik vahid hesab edilən xüsusiləşmə ilə də eyniliyi diqqətə çatdırılmışdır. O cümlədən, məqalədə sintaqmın xüsusiləşən və xüsusiləşməyən iki bölgüsünün təhlilini görürük.

**Tədqiqat**

Tədqiqatın predmetini isə bu hekayələrdə sintaqmın xüsusiləşmə və onun növləri kimi öyrənilməsi təşkil edir. Müasir dilçilik tarixində sintaqm anlayışının dilə, yaxud nitq aktına aid olmasına, cümlələrin sintaqmatik parçalara ayrılmasına, bu vahidin fonetik və ya sintaktik aspektdən öyrənilməsinə aid elmi araşdırmalar aparılsa da, vahid bir fikir formalaşmamışdır (Əlləzoğlu, 2013). Sintaqm probleminin tədqiqi zamanı meydana çıxmış bu mübahisəli fikirlər bizi problemin tədqiqat tarixinə yenidən nəzər salmağa sövq etdi. Belə ki, sintaqmın yaranmasında semantik, sintaktik və ya fonetik aspektlərdən hansının daha həlledici olmasından asılı olaraq, sintaqm problemi tədqiqatçılar tərəfindən müxtəlif dil vahidləri kimi araşdırılmışdır.

Sintaqmın şərhində sintaktik aspektdən yanaşaraq, onu əsasən sintaksisin vahidi kimi qəbul edənlərə Rus dilçi alimi L.R.Zinderə görə sintaqmı tam sintaktik vahid kimi təqdim etmə cəhdi narazılıq yaradır, çünki sintaqmın yaranmasında intonasiya yeganə vasitədir (Axundov, 1984, p. 125). Buradan aydın olur ki, L.R.Zinder sintaqmın sırf sintaktik vahid kimi qəbul edilməsi fikri ilə razılaşmır və fonetik aspektə üstünlük verir. S.İ.Abakumovun və V.Loyanın fikirləri də, hardasa, L.R.Zinderin yanaşması ilə üst-üstə düşür. S.İ.Abakumov qeyd edir ki, sintaqmlar cümlənin intonasiya ilə birləşən və pauzalarla ayrılan parçalarıdır. V.Loyaya görə, sintaqm faktiki surətdə canlı danışıq dilinin bölünməz sintaktik hissəsi olub iki fasilə arasında yerləşir, mənaca bütövdür, intonasiya vəhdətinə, xüsusi ritmə, məzmuna malikdir (Ağayeva, 1978, p. 230). Bu istiqamətdə Rus və Avropa dilçilərinin – A.A.Reformatski, V.V.Vinoqrodov, S.O.Karsevski, F.De Sössür və b. müxtəlif yanaşmaları mövcuddur (Seyidov, 1992; Zinder, 1979).

Dilçi alimlər A.Axundov, F.Ağayeva və Ə.M.Dəmirçizadənin tədqiqatlarının aktual problemi – sintaqmın dilimizdəki rolunun müəyyənləşməsində əvəzolunmaz rolu olmuşdur. Sintaqm hər şeydən əvvəl, nitq vahididir. Nitq, ünsiyyət prosesində yaranır. Bu prosesdə nitq nisbətən bitmiş fikir ifadə edən cümlələrə bölünür. Beləliklə, danışıq zamanı nitqin sintaqmatik parçalanması gedir, bir sözlə, sintaqmlar yaranır. Sintaqmatik parçalanmada sintaktik ünsürlər mühüm rol oynayır. Ona görə də, bu vahidi nə fonetik vahid hesab etməklə sintaksisdən tam təcrid etmək olar, nə də ki, sintaktik vahid kimi yanaşıb fonetikadan ayırmaq mümkündür. Bununla da, hər bir mürəkkəb cümlə, feili tərkiblər, əlavə və xüsusiləşmələr, qrammatik cəhətdən cümlə üzvləri ilə bağlı olmayan sözlər (xitab, ara sözlər), həmcins üzvlər müəyyən sintaqmlar təşkil edir.

Dilçilik ədəbiyyatında sintaqm termini ilə semantik-sintaktik vahid hesab edilən xüsusiləşmələrin eyniləşdirilməsinə faktına rast gəlinir (Kazımov, 2008). Mətn daxilində elə cümlə formaları ilə qarşılaşmaq olur ki, onlar konstruksiyaların sərhədlərini müəyyənləşdirməkdə mühüm əhəmiyyət kəsb edir. Həmin vahidlər dil hadisəsindən daha çox nitq hadisəsi kimi səciyyə daşıyır. Bunlar əsas söyləm bitdikdən sonra söz, söz birləşməsi və cümlə quruluşunda əlavə qeyd kimi verilən sintaqmlardır.

Xüsusiləşmə dilin sintaktik yaruslarında özünü göstərən hadisələrdəndir. Cümlə üzvlərinin bir qismi intonasiya və fasilə əsasında cümlənin başqa üzvlərindən fərqlənir. Prof. Q.Kazımov yazır: “məna yükünü nəzərə çarpdırmaq üçün xüsusi intonasiya ilə tələffüz edilən, fasilə və vurğu ilə ayrılan üzvlərə xüsusiləşmiş üzvlər deyilir” (Abdullayev, Seyidov & Həsənov, 2007, p. 231). Çağdaş türk dilində cümlə üzvləri bəzən intonasiya və fasiləyə görə digər üzvlərdən ayrılaraq xüsusiləşir, bəziləri isə xüsusiləşmir. Bu yönümdən sintaktik sintaqmları iki yerə bölmək olar: 1) xüsusiləşən sintaqmlar; 2) xüsusiləşməyən sintaqmlar (Abdullayev, Seyidov & Həsənov, 2007, p. 232).

Bildiyimiz kimi, cümlə intonasiya və ritmik baxımdan müxtəlif parçalara bölünür. Bu, nitq taktı adlanır. Bir sıra dilçilərə görə bu anlayış həm də sintaqmı ifadə edir. Beləliklə, nitq prosesində müxtəlif taktlar yaranır, həmin bölgülər bir-birindən müəyyən pauza ilə ayrılır.

Sintaqm və xüsusiləşmənin eyni qəlibə qoyulmasında fasilə və intonasiyanın rolu danılmazdır. Belə ki, bu vahidlər hər iki hadisənin yaranmasında ortaq xüsusiyyət kimi çıxış edir. Buna görə də, sintaqmlar bəzən xüsusiləşmə kimi də qiymətləndirilmişdir (Vinogradov, 1975).

Xüsusiləşmə cümlədə özünü semantik-sintaktik səviyyədə göstərən hadisədir. Xüsusiləşmələr qoşmalarla, qoşmalaşmaqda olan sözlərin iştirakı ilə yaranır və cümlə içərisində bu və ya digər fasilə və xüsusi intonasiya ilə başqa üzvlərdən fərqlənməsinə imkan yaradır (Abdullayev, Seyidov & Həsənov, 2007, p. 233).

Müqayisə edilən türk dillərində olduğu kimi, müasir Azərbaycan dilçiliyində də cümlə üzvlərinin xüsusiləşməsi sayəsində sintaqmlar yaranır. Bu bölgünü aşağıdakı kimi qruplaşdırmaq olar:

1. Mübtədanın xüsusiləşməsi əsasında ayrılan sintaqmlar;
2. Tamamlığın xüsusiləşməsi əsasında ayrılan sintaqmlar;
3. Zərfliyin xüsusiləşməsi nəticəsində ayrılan sintaqmlar.

Mübtədanın xüsusiləşməsi ilə xüsusən, ələlxüsus, xüsusilə, hətta, o cümlədən sözlərinin iştirakı ilə sintaqmlar əmələ gəlir. Bunlar xüsusiləşmiş sintaqmlara aiddir. Məsələn: /Qar yağanda/ təpələr çox gözəl olurdu,/ hər yan dümağ rəngə boyanırdı,/ hətta/ təpələrin sığallı yatımını ayıran cizgilər silinib gedir/, dünya ağappaq bir rəngin içində itib batırdı//; Bu il hiss etdim ki,/ mütləq oralara qayıtmaq lazımdır,/ özü də /məhz qışda,/ qar topuğa çıxanda//.

Tamamlığın xüsusiləşməsi nəticəsində yaranan sintaqmların xətti uzunluğu "başqa", "qabaq", "savayı", "qeyri", "əlavə", "əvəzinə" sözləri ilə idarə olunaraq bitir. Məsələn: /Dediyimiz kimi,/ makinaçıların otağı xüsusi müxbirin otağı ilə yanaşıydı,/ bundan başqa,/ redaktordan tutmuş,/ digər rəsmi adamlaracan qonşu qapını tez-tez açmalı olurdu/ və buna görə də/ xüsusi müxbir stolun üstünə uzanarkən işini ehtiyatlı tuturdu// (Axundov & Məmmədov, 1966, p. 64).

Zərfliklərin xüsusiləşməsi ilə ritmik-intonasiya qrupu yaranır. Prof. Əlövsət Abdullayev yazır: "zərfliyin xüsusiləşməsinə səbəb əksər halda onların izahedici sözlər hesabına genişlənməsi, bir məna bütövlüyü yaratması, xüsusi intonasiya ilə deyilməsi və fasilə tələb etməsidir" (Abakumov, 1942, p. 192).

"Tərz zərflikləri daha çox məsdər və feili sifət tərkiblərinə kimi qoşmasının əlavəsi ilə məna birliyi, intonasiya və fasilə ilə ayrılır, yəni xüsusiləşir" (Abdullayev, Seyidov & Həsənov, 2007, p. 234). Məsələn: /Adam/ özünü başqalarına bütünlüyü ilə izah edə bilmədiyi kimi/ onun hissləri də digərləri üçün yad,/ anlaqsızdır// (Axundov & Məmmədov, 1966, p. 205); /Mənə o günlərdən heç nə qalmadı,/ hər şey şadaranın gözündən süzülüb itən kimi/ aşağı sürüşdü,/ yoxluğa axıb getdi//; /Məmməd isə/ bu alış-verişin ona dəxli yoxmuş kimi/ kənarda yad adam kimi dayanıb onlara baxırdı//.

"Qarşılıq – güzəşt zərfliyi ilə əmələ gələn sintaqmlar halda, baxmayaraq sözləri ilə düzəlir" (Abdullayev, Seyidov & Həsənov, 2007, p. 235). Məsələn: /Ən qəribəsi bu idi ki,/ uzun müddət görüşməməyimizə baxmayaraq/, danışmağa söz tapmırdıq//.

Zaman zərfliyindən ibarət olan sintaqmın bir tipi də feili sifət tərkiblərinə artırılan isimlərin zaman, vaxt ifadə edən zərflərin (sonra, qabaq, bəri, əvvəl) iştirakı ilə yaranmasıdır. Məsələn: /Düzünə qalsa mən uşaqlıqdan sonra/ o təpələrdə cəmi-cümlətanı bircə dəfə olmuşdum//; /Xüsusi müxbir neçə dəfə sınamışdı,/ hər dəfə makinaçı qadınla danışdığını görəndən sonra/ redaktor onu yanına çağırıb müxtəlif bəhanələrlə danlayırdı/, bir şələ tapşırıq verib otağına göndərirdi// (Axundov & Məmmədov, 1966, p. 64); /Oradan,/ havanın asıldığı çıxacaqdan/ mütləq qırmızı donlu bir qız/ üzü bəri gəlməli,/ sevinə-sevinə,/ gülümsəyə-gülümsəyə baş alıb harasa getməliydi//; /Evdən çıxmamışdan qabaq/ yəqin güzgünün qarşısında daranmış,/ üz-gözünə sığal çəkmişdi//; "-ınca, -incə, -unca, -üncə; -anda, -əndə şəkilçili feili bağlama birləşmələri də sintaqm yaradan vasitələrdəndir" (Abdullayev, Seyidov & Həsənov, 2007). Məsələn: /Şöbə müdirindən tapşırıqlar alıb otağıma dönəndə/ başımdan iş-güc aşırmış kimi/ işgüzar bir görkəmdəydim// (Axundov & Məmmədov, 1966, p. 205); /Bu cür sahibsiz itlərin gözünün dərinliyində/ həmişə bir yazıqlıq olur,/ onlara sığal çəkəndə/ suyuq qızlar kimi əriyib gedir,/ bütün bədənləri ilə şöngüyür,/ yaltaqlanıb az qalırlar ayaqlarının altına düşərlər// (Axundov & Məmmədov, 1966, p. 58).

Xüsusiləşmiş sintaqmlar cümlənin digər hissəsindən sintaqmatik parçalanmanın yaranmasına vəsilə olan intonasiya ilə fərqləndirilir. Bu tip sintaqmlar da mətn daxilində nitq prosesi zamanı səciyyələnir. Cümlə və onun tələffüz zamanı yaranan sintaqmatik üzvlənməsindən əmələ gələn sintaqmlar bir-birindən fərqli sintaktik quruluşda olurlar. Yuxarıda aparılmış bölgülərin xarakterik xüsusiyyətləri də bunu təsdiqləyir. Buna uyğun olaraq, mətn daxilində bölgülər apararaq bu sintaktik struktur fərqliliyini ortaya qoymaq mümkündür. Məsələn;

/Payızın zəhlətökən yağışının içində/ maşınla küçələri ələk-vələk etdik,/ siqaret çəkə-çəkə susduq,/ danışmaq lazım gələndə isə/ razdionun dalğalarını gəzdik,/ yolboyu düzülmüş evlərin/ bir çərək işığında görünən pəncərələrinin o üzündə tüyünən,/ televizora baxan adamların/ maşının sürətilə ötüb keçən ani görümlərinə baxdıq// (Axundov & Məmmədov, 1966, p. 203). Cümləsi hər biri ayrılıqda semantik yönümdən nisbi fikir bitkinliyi bildirən doqquz sintaqma ayrılmışdır. Söz tutumlarına görə bu sintaqmlar müxtəlifdir. Belə ki, birinci, ikinci və dördüncü sintaqmlar dörd sözdən, üçüncü, beşinci, altıncı və səkkizinci sintaqmlar üç sözdən, yeddinci sintaqm səkkiz sözdən, doqquzuncu sintaqm isə yeddi sözdən ibarətdir.

Nümunədə ayrılan sintaqmların hər birinin özünəməxsus sintaktik strukturu olması aydın görünür. Bunu əyani şəkildə diqqətə çatdırmaq üçün cümlədən götürülmüş üç sintaqmın sintaktik strukturunu aydınlaşdıraq: “radionun dalğalarını gəzdik”, “danışmaq lazım gələndə isə” və “televizora baxan adamların”. “Radionun dalğaları” üçüncü növ təyini birləşməsidir, sintaqmın üçüncü üzvü olan “gəzdik” felinin məlum növündə şühudi keçmiş zamandadır. Digər bölgüdəki üzvlər “danışmaq lazım gələndə isə” hissəciklə birlikdə feili bağlama tərkibi funksiyasında çıxış etmişdir. “Televizora baxan adamların” sintaqmında həm təyinedənlə təyin olunan arasındakı əlaqəni, həm də “televizora baxan” feli sifət tərkibi əmələ gətirdiyini görürük. “Adamların” qismi isə üçüncü növ təyini söz birləşməsinin əsas tərəfi kimi çıxış etmişdir (Edebiyyat Dünyası, 2016).

Beləliklə, bu təhlildən məlum olur ki, sintaqmın sintaktik strukturu başqa dil vahidlərinin sintaktik strukturundan seçilir. Sintaqmlar danışıq prosesi ilə bağlı olduğu üçün onların leksik tərkibi fərqli faktorlarla əlaqədar ola bilər. Bu faktorlara xitablar, ara sözlər və ara cümələri göstərmək məqsədəuyğun olar. Bu sintaktik vahidlər həmişə sintaqm kimi tələffüz edilir. Məsələn; “/Cavan oğlan/, tanımadığın adam haqqında heç vaxt pis düşünmə//” (Axundov & Məmmədov, 1966, p. 266); “/Son vaxtlar ağrıyır,/ deyəsən,/ serozdan şübhələnir,/ amma həkimə getməyə də ürək eləmir//”; “/Doğrudan da/ mağazaya təzə kitablar gətirmişdilər//” (Axundov & Məmmədov, 1966, p. 196); “/Özünü səhnədə təsəvvür etdi,/ elə bil/ dekorasiyaların arasında da durub öz rollarını oynayırdılar//” (Axundov & Məmmədov, 1966, p. 197); /Gecdi/ çox gecdi,/ yəqin taksi şoferi də bu saat gedib yatacaq,/ sabah, ya da biri gün onu, daha doğrusu,/ onları xatırlayacaq,/ sonrakı gün şəhərdə rastlaşdığı min-min adamın sifətini yadından çıxaran kimi/ onları da unudacaq// (Seyidov, 1992, p. 67); /Deyilənə görə,/ o kənddə bazar var/ və bizim kəndin adamları da ora qoyun,/ inək satmağa gedir// (Axundov & Məmmədov, 1966, p. 243).

Tədqiqatlar zamanı belə bir məqamla qarşılaşa bilərik ki, sadalanan bütün kateqoriyalar sintaqm yaradırmı? Prof. Y.Seyidovun fikrincə, “sintaqm sözlərin əlaqəsindən, formasından asılı olmayaraq, nitqdə pauza ilə ayrılan hissələr olduğuna görə çox müxtəlif formalarda meydana çıxır” (Ağayeva, 1975, p. 78).

Dilçi alimin mülahizələrindən məlum olur ki, sintaqm heç də sadalanan kateqoriyalarla eyniləşdirilmir və həmin halda da müxtəlif kateqoriya olaraq qalır. Bu ortaq xüsusiyyəti fərqləndirmək üçün o, hecalarla sözlərin hecalara bölünməsini müqayisə edir. Heca bir halda səsə, bir halda sözə, başqa halda şəkilçiyə uyğun gələ bildiyi halda, sintaqm da nitqin deyilişi zamanı ayrılan hissəsi olub, sözə, söz birləşməsinə, cümləyə uyğun gələ bilər. Hecanı səs, söz, şəkilçi ilə eyniləşdirə bilmədiyimiz kimi, sintaqm da söz, söz birləşməsi və cümlə ilə eyniləşdirilə bilməz. Danışıq prosesi ilə əlaqəli olan bu vahidlər kontekst və situasiya ilə bağlı olduğundan müvəqqəti xarakterli olur və cümlədə sintaqmın sərhədi məna və məqsəddən asılı olaraq dəyişir. Bu, sintaqmın ayrımlarının qanunauyğunluqlarını inkar etmir (Musayev, t.y., p. 79).

Yuxarıda da qeyd etdiyimiz kimi, bir sıra vahidlər özündən əvvəl və sonra işlənən sözlərdən seçilmək üçün fərqli intonasiya ilə tələffüz edilərək fasilə ilə ayrılır. Xitablar, xüsusiləşmələr, ara sözlər, ara cümlələr nitq axını çərçivəsində özlərindən əvvəl və sonra işlənən sözlərdən müəyyən fasilə ilə ayrılır. Bununla da, göstərilən bu vahidlərin hər biri nitq prosesində müstəqil sintaqm kimi qərarlaşır. Məsələn, /Kamandar/ kəndə gedən yol budur/ dedi// (Seyidov, 1992, p. 41); /Xalaoğlu,/ qız görmüyübsənmi/ nə gözünü bərəldirsən/? (Seyidov, 1992, p. 43) və s.

Göstərilən cümlələrdə sintaqmatik bölünməni göstərən fasilələrin olması vacibdir. Belə zəruri fasilələr mürəkkəb cümlənin komponentləri və həmcins üzvlər arasında da özünü göstərir. Məsələn:

1. /Kino davalıydı, adamlar maraq dolu gözlərini ekrana zilləmişdilər, amma onun müharibəyə, faşist mundiri geymiş artistlərə baxmağa heç həvəsi yox idi/ (Seyidov, 1992, p. 195).
2. /Hiss etdi ki,/ bu bayram yad adamın sevinci kimi /ondan kənarda qalır,/ sonacan əriyib özünün ola bilmir// (Seyidov, 1992, p. 200).
3. /Bu yad şəhərdə oturub-durmağa adam olmadığından/ aradabir görüşür,/ pivə,/ çay içir,/ laqqırtı vurur,/ bir-birimizə lətifələr danışıb gülürdük// (Seyidov, 1992).
4. /Qara araqçınlı kişi/ səbətdəki alma və şaftalını/ bura gəlmiş arvadlarla/ arpaya,/ buğdaya,/ qarğıdalıya dəyişərdi// (Seyidov, 1992).
5. /Adamlar bir-birinə dedilər ki,/ ey dadi-bidad,/ ey dili qafil,/ biz niyə fil qulağında yatıb qalmışıq,/ bəlkə o kiməsə,/ yuxarılara ərizə,/ material,/ danos yazır,/ ayağımızın altını qazır// (Seyidov, 1992, p. 64).
6. /Redaksiyada işləyən xanımlar fikirləşirdilər ki,/ korrektoru təmiz geydirəsən,/ üzünü qırxdırasan,/ gözəl-göyçək oğlan olar// (Seyidov, 1992, p. 85).

Nümunələrdən bir daha aydın olur ki, sintaqmların sintaktik quruluşu müxtəlif xarakterə malikdir.

## Nəticə

Sadalanan bütün kateqoriyalar sintaqm yaratmır. Digər sintaktik vahidlərin hər birinin istər yazılı, istərsə də şifahi nitqdə işlənmə yeri var. Sintaqmın fasilə, intonasiya kimi nitq vahidlərinin təzahürü nəticəsində var ola bilməsi onu bu vahidlərlə eyniləşdirmir. Xüsusiləşmə, xitab, ara sözlər bizə kontekstdə sintaqmı xatırladan kateqoriyalardır, onun dərk olunmasında bilavasitə rol oynayırlar.

Hər şeydən əvvəl danışıq prosesi ilə bağlı olan sintaqmın leksik tərkibi müxtəlif faktorlarla əlaqəli şəkildə üzə çıxır. Xitablar, ara sözlər və ara cümlələr kimi sintaktik vahidləri bu faktorlara aid edə bilərik. Bir sözlə, bəzi mənbələrdə fonetik, sintaktik vahid kimi tədqiq edilən sintaqm, şifahi nitqin təzahürü olaraq yazılı dildə dil vahidlərinin köməyilə öz mövcudiyyətini qoruyub saxlayır.

## Ədəbiyyat

1. Abakumov, S. I. (1942). *Sovremennyy russkiy literaturnyy yazyk* (pp. 119–235).
2. Abdullayev, Ə., Seyidov, Y., & Həsənov, A. (2007). *Müasir Azərbaycan dili. Sintaksis*. Şərq-Qərb.
3. Ağayeva, F. (1975). *Şifahi nitqin sintaksisi*. Maarif.
4. Ağayeva, F. (1978). *Azərbaycan dilinin intonasiyası*. APİ.
5. Axundov, A. (1984). *Azərbaycan dilinin fonetikası*. Maarif.
6. Axundov, A., & Məmmədov, N. (1966). *Dilçiliyə giriş*. Maarif.
7. Azkurs.org. (t.y.). *Terminologiya məsələləri*. http://www.azkurs.org/terminologiya-meseleleri-2.html?page=8
8. Edebiyyat Dünyası. (2016). *Fonetika proqramı*. https://edebiyyatdunyasi.files.wordpress.com/2016/fonetika-proqram.pdf
9. Əlləzoğlu, E. (2013). *Hekayələr*. Qanun.
10. Kazımov, Q. (2008). *Seçilmiş əsərləri* (Cild 5). Nurlan.
11. Musayev, M. (t.y.). *KP_4*. https://mehmanmusayev.com/pdf/kp_4.pdf
12. Reformatskiy, A. A. (1955). *Vvedeniye v yazykoznaniye*. Uchpedgiz.
13. Seyidov, Y. (1992). *Azərbaycan dilində söz birləşmələri*. BDU Nəşriyyatı.
14. Vinogradov, V. V. (1975). *Izbrannyye trudy. Issledovaniya po russkoy grammatike*. Nauka.
15. Zinder, L. R. (1979). *Obshchaya fonetika*. Vysshaya shkola.

Daxil oldu: 06.05.2025
Qəbul edildi: 05.09.2025